# Missiya

*Sonralar - artıq universitetin birinci kursunda idi - Səfi oxudu ki, Cek London özünü öldürüb və "Həyat eşqi"ni yazan bir adamın 40 yaşında özünü öldürməsi o zaman onu heyrətə gətirmişdi, bu heyrətdə, eyni zamanda, pis bir nigarançılıqla, müdhiş bir ərəfə hissi ilə dolu qorxu var idi.*

yu heç kimdə, hətta Firuzədə belə bu dərəcədə bir doğmalıq hiss etməmişdi.

Səfi Qədirlinin varlığında elə bir azadlıq hissiyyatı yarandı ki, elə bil. o, tamamilə çəkisizdir, şəffafdır, varlığında heç bir əza duyğusu, hərəkət duyğusu yoxdur, yalnız öz şüurunun içindədir, hara istəsəydi, eləcə bir yüngülüklə uça bilərdi, hara istəsəydi qona bilərdi.

Səfi Qədirli yazı mizinin arxasından qalxıb on beşinci mərtəbədəki mənzillərinin balkonuna çıxdı.

Aylı-ulduzlu gözəl bir yaz gecəsi idi.

Əvvəllər bu yaxın-uzaq ulduzlar başdan-başa sirlərdən ibarət bir aləmdən xəbər verirdi.

Daha sirr yox idi.

Səfi Qədirliyə elə gəlirdi ki, istəsə, o ulduzlardan hansınasa uça bilər və üzünü daha da yuxarı qaldıraraq, açıq-aşkar bir istehza ilə o ulduzlara baxdı - Səfi Qədirli o ulduzların nəhəngliyi və uzaqlığı qarşısında daha həmişəki kimi miskin bir varlıq deyildi.

Səfi Qədirlinin daxilində böyük bir qələbə həyəcanı var idi və o, hətta akademik Sultan Sultanlıya telefonla zəng etmək istədi.

Ancaq gecə saat üç idi.

Onsuz da sabah bütün bəşəriyyətə hər şey aydın olacaqdı.

Sabah kafedrada mütləq mətbuat konfransı keçirmək lazım idi.

Səfi Qədirli otağa keçdi.

Firuzə şirin yuxuda idi.

Səfi Qədirli yatağa girmədi. Mizin arxasındakı kürsüdə oturdu.

O, yazı mizinin arxasında heç vaxt bu cür inanılmaz dərəcədə gözəl bir həyəcan içində, bu cür rahat və bu cür azad olmamışdı.

**3**

... Və həmin səhər Səfi Qədirli yazı mizinin arxasındakı kresloda bütün varlığına indiyədək duymadığı bir rahatlıq gətirən o gərnəşmədən sonra ayağa qalxıb, Firuzə yuxudan oyanmasın deyə, həmişəki kimi səssiz yuyundu, həmişəki kimi də səssiz geyindi, ancaq həmişəki kimi universitetə yox, dənizkənarı bulvardakı çayxanaya getdi - o, hələ ki, bu dünyada *Böyük nəticədən* xəbərdar olan yeganə insan idi və heç olmasa yarım saat dəniz kənarında beynindəki bu *Böyük nəticə* ilə təkbətək oturmaq, gözəl bir teatr tamaşası kimi bu *Böyük nəticənin* həllinə - yamyaşıl bir işıq altında bir-birini əvəz edən işarələrə, rəqəmlərə baxmaq, bir daha baxmaq istəyirdi.

Səfi Qədirli əvvəllər də hərdən bu çayxanaya gəlirdi və yay vaxtları beynindəki hesablamalarla məşğul ola-ola çöldə, böyük söyüd ağacının altındakı mizin arxasında otururdu.

Çayçı Əlifağa:

- Salam, məllim!- dedi.- Çoxdandı görünmürsən...

Səfi Qədirli gülümsəyərək:

- Salam, salam!- dedi- Necəsən?- Və Çayçı Əlifağaya əl uzatdı.

Çayçı Əlifağa Səfi Qədirlini çay içə-içə gözlərini uzaqlara zilləyib, hərdən də dəftərini cibindən çıxarıb nəsə yazan sakit, qaradinməz, heç kimlə dinib-danışmayan, həmişə də tək olan bir müştəri kimi tanıyırdı və bu dəfə səhər-səhər ilk müştərisinin onu beləcə bir kefiköklüklə salamlaması, ona əl verməyi Çayçı Əlifağanın özünün də kefini kökəltdi. Çayçı "İnşallah, bu gün bazar yaxşı olar!.." ümidi ilə söyüd ağacının altındakı mizin üstünü xüsusi bir cidd-cəhdlə sildi:

- Buyur, məllim!

Səfi Qədirli Çayçı Əlifağaya baxa-baxa fikirləşirdi ki, bu adamın, yəni Çayçı Əlifağanın həyatı bu gündən etibarən tamam dəyişəcək, o, özünün bu dünyadakı missiyasından xəbərdar olacaq və onun qayğıları, dərdi-səri də, sevinci, nəşəsi də o *Böyük nəticənin* göstərdiyi *Böyük missiya* müqabilində özünə gülünc və mənasız görünəcək.

O yay səhəri dənizdən yüngül bir meh əsirdi və dənizin narın ləpələrinin səsi söyüd yarpaqlarının xışıltısına qarışaraq Səfi Qədirlinin fikrini uzaqlara - səkkizinci sinif şagirdi Səfinin yanına aparırdı: həmin unudulmaz anlara, dəqiqələrə ki, Mövsümzadə ona Cek Londonun "Həyat eşqi" hekayəsini danışırdı. Sonralar - artıq universitetin birinci kursunda idi - Səfi oxudu ki, Cek London özünü öldürüb və "Həyat eşqi"ni yazan bir adamın 40 yaşında özünü öldürməsi o zaman onu heyrətə gətirmişdi, bu heyrətdə, eyni zamanda, pis bir nigarançılıqla, müdhiş bir ərəfə hissi ilə dolu qorxu var idi. Səfi Qədirli Çayçı Əlifağanın xüsusi bir eşqlə dəmlədiyi çaydan içə-içə bunları yadına salıb gülümsədi: daha bu dünyada heyrətamiz bir şey yox idi və bu gün o, mətbuat konfransı çağırıb, *Böyük nəticəni* bütün dünyaya elan edəcəkdi - bunu gecikdirmək olmazdı.

*Böyük nəticəni* ilk olaraq, əlbəttə, kafedradakı yazı lövhəsində yazıb Sultan Sultanlıya göstərəcəkdi və bunu fikirləşəndə Səfi Qədirli *Böyük nəticəyə* baxan akademikin sifətini gözlərinin qabağına gətirdi - əslində, Sultan Sultanlının heyrətdən bərəlmiş gözləri ilə o yazı lövhəsinə bütün fizika aləmi, bütün bəşəriyyət baxırdı.

Fizikanın əldə etdiyi bu *Böyük nəticə* bəşəriyyət üçün nə qədər taleyüklü bir hadisə idisə, o qədər də sadə idi və bu *Böyük nəticəni* heç kimə xüsusi başa salmaq lazım deyildi, Onu yaşından, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hamı başa düşəcəkdi, insan bu dünyaya gələn andan necə bir asanlıqla nəfəs alırdısa, *Böyük nəticəni* də eləcə bir asanlıqla anlayıb, qavrayacaqdı.

Həmin yay səhəri dənizin narın dalğacıqları sakit-sakit bulvar sürahısının beton özülünə toxunduqca ətrafa yayılan o yüngül şappıltı, elə bil, o dəm Səfi Qədirlinin fikirləri, düşüncələri ilə həmahəng idi və Səfi Qədirli Firuzənin dünənki şerini xatırladı: o şeir də indi başqa bir qiyafədə idi - ləpələr də, meh də şeirdəki o sözləri həqiqətən pıçıldayırdı.

Firuzə elə bilirdi ki, bu sözlər onun içindən axıb gəlir, əslində isə bu sözləri Firuzəyə öz şüurunun dərin qatları diktə edirdi, o qatlar ki, nə Firuzənin, nə Mitilenli Safonun, nə də bu dünyaya gələn və gedən milyardlarla insanların həmin qatlardan xəbəri olub. Bütün bəşəriyyətin - bax, bu gombul çayçı da daxil olmaqla - nə qədər enerjisi var idisə, həmin enerji bütün bu müddət ərzində Səfi Qədirli ilə birlikdə olub və bu enerjidə mənfi-müsbət qarşıdırması olmayb, çünki mənfi də, müsbət də bu dünyadakı missiyalarının nədən ibarət olduğunu bilmək istəyirdi, bu böyük istək həmin missiyanın başlandığı andan bütün insanların şüurunun həmin dərin qatlarında ört-basdır edilmişdi.

Bu günə qədər belə idi!

Və elə bu vaxt Səfi Qədirli ağaclıqdan çıxıb asta addımlarla çayxanaya tərəf gələn o adamı gördü və o adam boş mizlərin arasından keçib, Səfi Qədirlinin çay içdiyi mizin arxasında, onunla üzbəüz oturdu.

- Salam.

- Salam, salam!- Səfi Qədirli eyni ruh yüksəkliyi ilə tanış olmadığı bu adamla salamlaşdı.

Düzdü, onlar tanış deyildilər, ancaq Səfi Qədirliyə elə gəlirdi ki, qarşısındakı bu adamı hardasa görüb və zövqlə geyinmiş bu adamın iri yaşıl gözlərinə, yaraşıqlı, ancaq solğun sifətinə, dən düşmüş və səliqə ilə arxaya daranmış saçlarına baxa-baxa yadına salmağa çalışırdı ki, onu harda görüb.

Səfi Qədirli də, o adam da bir-birlərinə baxırdılar və araya anlaşılmaz bir sükut çökmüşdü.

Səfi Qədirli, görünür, bu sükutu pozmaq üçün:

- Necəsiniz?- soruşdu.

Adam:

- Həmişəki kimi...- dedi və Səfi Qədirli bu səsdə adamın bəlkə də gizlətmək istədiyi həzin bir qüssə hiss etdi, eyni zamanda, bu səsdə aşkar br doğmalıq, bir cazibə var idi.

Səfi Qədirliyə elə gəldi ki, o həzn, qüssə də, o doğmalıq, o cazibə də üzbəüz əyləşib ona baxan bu adamın iri yaşıl gözlərinin dibinə çöküb və bu an o iri yaşıl gözlərdən xəfif bir işıltı axıb keçdi.

Elə həmin anın içində də Səfi Qədirlinin cismani və mənəvi varlığı, elə bil, bir maye kimi əriyib töküldü və onun boşalıb, heydən düşmüş bədənini soyuq tər bürüdü.

Adam Səfi Qədirlinin gözlərinin içinə baxa-baxa yüngülcə başını tərpədib, Səfi Qədirlinin başa düşdüyünü, anladığını təsdiq etdi.

*Böyük nəticənin* disturu Səfi Qədirlinin gözlərinin qabağında idi və o, var gücünü toplayıb qışqırmaq, *Böyük nəticəni* dünyaya bildirmək istəyirdi, ancaq bu mümkün deyildi. *Böyük nəticənin* göstəricilərini açıqlamağa onun nəfəsi çatmırdı.

Adam ayağa qalxıb, arxasını Səfi Qədirliyə çevirərək dənizə tərəf addımladı və elə bil, onun varlığı bir maqnit gücü ilə Səfi Qədirlini öz ardıyca çəkirdi - Səfi Qədirli də ayağa qalxıb onun ardınca addımlamağa başladı.

Çayçı Əlifağa təəccüblə:

- Məllim, hara belə?- soruşdu.

Səfi Qədirli çox güman ki, çayçı Əlifağanı eşitmədi.

O, bir duman içində nə qədər gücü varıydısa, çalışırdı ki, adamın ardınca getməsin, ancaq bu mümkün deyildi və onlar bulvarın daş sürahısına çatanda, adam sürahının üstünə çıxdı.

Səfi Qədirli də onun ardınca sürahıya qalxdı.

Arxadan çayçı Əlifağanın çığırtısı eşidildi:

- Məllim, bu nədi belə!? Nə edirsən?..

Çayçı Əlifağanın çığırtısından, ya nədənsə Səfi Qədirli bir anlıq, yalnız bir anlıq dumandan çıxdı və həmin anda da gözəl bir uşağın siması təzə-tər yaşıl bir işıq ilə işıldayan *Böyük nəticə* göstəricilərini dağıdaraq onun gözlərinin qabağına gəldi.

O vaxtlar ki, təzəcə evlənmişdilər və Firuzə poeziya aləmindən ayrıla bilər deyə, uşaq istəmirdi, həmin vaxtlar Səfi Qədirli də hərdən beyninə bir az dinclik vermək üçün, xəyal aləmində doğulmuş o uşağı bulvardakı bu sürahının üstünə çıxarıb, onu bərk-bərk qucaqlayırdı - birlikdə dənizin uzaqlarında üzən gəmilərə baxırdılar.

Sonra adam sürahının üstündən dənizə doğru addım atdı.

O gözəl uşağın siması duman içində əriyib yox oldu və *Böyük nəticənin* rəqəmləri yenə də təzə-tər bir yaşıl işıltı ilə duman içindən çıxıb, Səfi Qədirlinin gözlərinin qabağında işıldadı.

Və Səfi Qədirli adamın ardınca addımladı.

**4**

***"Çayçı Əlifağa Mürşüd oğlunun Bakı şəhəri 113-cü polis bölməsinə yazdığı***

**İZAHAT**

Mən - çayçı Əlifağa Mürşüd oğlu yazıb bildirirəm ki, mənim müştərim Səfi Qədirli söyüd ağacının altında oturub çay içirdi. O, tək idi. Sonra kiminləsə salamlaşdı. Mən baxıb, heç kimi görmədim. Birdən kimdənsə soruşdu ki, "Necəsiz?" Mən yenə baxıb, heç kimi görmədim. Elə bildim telefonla danışır. Ancaq əlində telefon yox idi. Sonra ayağa qalxıb dənizə tərəf getdi. Mən təəccüb etdim, soruşdum ki, hara gedirsiz? Cavab vermədi. Sonra dənizin daş sürahısının üstünə çıxdı. Mən qışqırdım ki, bu nədi belə, nə edirsən? Cavab vermədi. Sonra elə bil, düz yolla gedirdi, addım atıb daş kimi düşdü dənizə. Mənim qışqırığıma adamlar yığışdı. Xilasedicilər onu dənizdən çıxaranda, o bədbəxt artıq rəhmətə getmişdi.

Özüm yazmışam, imza da mənimdir.

Çayçı Əlifağa Mürşüd oğlu."

*2016*